Azərbaycan Yazıçılar Birliyi

# Ədəbiyyat qəzeti

www.edebiyyatqazeti.az

20 fevral 2021-ci il. Şənbə № 7 (5293) 1934-cü ildən çıxır www.ayb.az Qiyməti 40 qəpik

## N.Ə.Həsənzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "İstiqlal" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 fevral 2021-ci il*

## *Xalq şairi Nəriman Həsənzadəyə*

Hörmətli Nəriman Həsənzadə!

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Siz ötən əsrin ortalarında ədəbiyyat aləminə qədəm qoyduğunuz vaxtlardan öz dəstxəttinizi formalaşdırmış və geniş oxucu auditoriyasının ehtiramını qazanmısınız. Şair və dramaturq kimi uzunmüddətli səmərəli fəaliyyətiniz boyu yüksək sənətkarlıqla meydana gətirdiyiniz ədəbi əsərlər söz xəzinəmizə layiqli töhfədir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən bu əsərlər Sizi ədəbi prosesin ön mövqelərinə çıxarmışdır. Bədii-estetik kamilliyi ilə seçilən şeir və poemalarınıza dərin səmimiyyət, həssaslıq və güclü lirizm hakimdir. Dövrün mənzərəsini dolğun canlandıran və xalqımızın mübarizliyinin tərənnümünə çevrilən mənzum tarixi dramlarınız tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış, teatrlarımızın repertuarında özünəməxsus yer tutmuşdur. Yaratdığınız poetik nümunələrə bəstələnən mahnılar dillər əzbəridir. Ziyalı vətəndaş mövqeyi nümayiş etdirərək ictimai sahədə göstərdiyiniz təqdirəlayiq fəaliyyət kitablarınızdakı fikir və düşüncələrinizi əməli surətdə gerçəkləşdirmək istəyinizin bariz təzahürüdür.

İnanıram ki, Siz vətənpərvərlik ruhu və əxlaqi-mənəvi saflıq aşılayan əsərlərinizlə Azərbaycan oxucusunu bundan sonra da sevindirəcəksiniz.

Ən xoş arzularla,

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 fevral 2021-ci il*



## Ədəbiyyatımızın səhnəsi

## Abdulla Şaiq

Səh.8-9

Səh.13

**Bəlkə də, yağışlar yağmamalıydı.**
**Buludlar könlünə dəydi ki, yağsın.**



Taleh Mansur



Səh.19

## Hər donduran qışın bahardır sonu, yaxud Mehmet Altunbay Gültəkin haqqında



Səh.6

*Çayını iç,*
*sabahın dərdini çəkmə!*
*Bizim zəmidən*
*bir ovuc saman qalacaq küləklərə...*

*Çağdaş İran şairi və rəssamı*
*Hacər Fərhadi*